UOT 94 (4/9)

# İNGİLTƏRƏNİN "LEVANT" ŞİRKƏTİNİN TƏŞKİLİ TARİXİNDƏN

**N.B.MƏMMƏDOVA**
*Bakı Dövlət Universitetinin baş müəllimi*
*nazile_mamedova@mail.ru*

*Məqalədə İngiltərənin Osmanlı imperiyası ərazisində ticarət fəaliyyətini təmin etmək üçün apardığı mübarizə, bu mübarizə gedişində meydana gəlmiş "Levant" şırkətinin fəaliyyəti araşdırılır. Əsas diqqət şirkətin təsisçiləri olan London tacirlərinin diplomatik bacarığına, kraliça Yelizavetanın Osmanlı sultanları ilə apardığı danışıqlara və bu danışıqların nəticələrinə yönəldilmişdir. "Levant" şirkətinin Osmanlı mülklərində yalnız ticarət fəaliyyəti ilə deyil, həm də diplomatik tapşırıqları da yerinə yetirdiyi müəllif tərəfindən xüsusi vurğulanmışdır.*

**Açar sözlər:** şirkət, ticarət, beynəlxalq münasibətlər, imperiya, iqtisadiyyat

XVI əsrin ikinci yarısında beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər Osmanlı imperiyasında nüfuz uğrunda Avropa dövlətlərinin mübarizəsini də kəskinləşdirdi. Qərbi Avropa ölkələrində kapitalist münasibətlərinin inkişafı ticarət əlaqələrinin genişləndirilməsini tələb edirdi; digər tərəfdən, Levantdan gələn mallara (ipək, pambıq, boyaq maddələri, ədviyyat və s.) tələbat da artmışdı. Baş verən bu hadisələr, təbii ki, Qərb dövlətlərinin Levantda ticarət rəqabətini gücləndirirdi.

XVI əsrin 70-ci illərində Osmanlı imperiyasında ticarət imtiyazları və siyasi nüfuz uğrunda mübarizəyə İngiltərə də qoşulur. İngiltərə və Türkiyənin siyasi alyansı, həm xarici siyasi vəziyyətlə, həm də Türkiyənin özündə baş verən hadisələrlə şərtlənirdi. Türkiyənin siyasi müttəfiqi kimi Fransanın əhəmiyyəti vətəndaş müharibələri nəticəsində aşağı düşmüşdü. İngiltərənin müstəmləkələr və dənizlərdə üstünlük uğrunda İspaniya ilə müharibəsi yetişməkdə idi və bu mübarizədə ingilis mütləqiyyəti II Filipin rəqiblərinə: Fransaya, Niderlanda və Osmanlı imperiyasına arxalanırdı. Osmanlı imperiyası isə bu zaman xarici siyasi çətinliklərlə üzləşmişdi; onun ilk iri hərbi məğlubiyyətləri isə həm də daxili problemləri ilə bağlı idi. Bununla yanaşı, Türkiyə Avropa üçün hələ də qorxulu düşmən olduğundan, ona qarşı koalisiyalar yaratmaq fəaliyyəti davam etməkdə idi. İngiltərə və Niderlandla mübarizə aparan ispan hökumətinin xarici siyasət vəzifələri içərisində türk təhlükəsinə qarşı planlar, o cümlədən Aralıq dənizində ticarət yollarının və naviqasiyanın təhlükəsizliyin

təmini də xüsusi yer tuturdu. Böyük donanmaya, Atlantikada limanlara və müstəmləkələrə malik olan İspaniyaya qarşı onun rəqibləri, o cümlədən İngiltərə və Türkiyə birgə əməliyyatlarda maraqlı idilər (bu barədə ətraflı bax: 10, 65).

İngiltərə ilə Osmanlı imperiyası arasında diplomatik münasibətlərin bərqərar olması iki ölkə arasında ticarət əlaqələrinin başlanğıcı ilə bağlı idi. Əvvəlki fəsildən də göründüyü kimi, XVI əsrin 40-cı illərinin əvvəllərində İngiltərə-Habsburq yaxınlaşması İngiltərəni Türkiyənin müttəfiqi rolundan avtomatik azad etmişdi. Lakin eyni zamanda, məhz bu illərdə İngiltərənin «Şərq məsələsi»ndə siyasətinin əsas prinsipləri açıq-aşkar formalaşır (9, 66). Bu məsələdə ingilis diplomatiyasının fəallaşması isə 70-ci illərdə başlayır.

1575-ci ildə iki London tacirləri Edvard Osborn və Riçard Steyper öz vəsaitləri hesabına əməkdaşlarını (Con Uaytı və Cozef Klementsi) Polşa ərazisindən keçməklə İstanbula yola saldılar. Bu səfərin əsas məqsədi türk sultanı III Muraddan ingilis ticarət agenti Vilyam Xarborna vizit üçün icazə almaq idi. Belə bir icazə alınandan sonra Vilyam Xarborn 1578-ci ildə İstanbula səfər etdi. Bu səfər sayəsində yuxarıda adları çəkilən Osborn və Steyperə türk mülklərində ticarət azadlığı qazanıldı. Xarborn İngiltərəyə sultanın kraliça Yelizavetaya ünvanladığı məktubla qayıtdı. Öz məktubunda sultan ingilis kraliçasını türklərin İngiltərəyə səmimi münasibətlərində və ingilis təbəələrinin türk mülklərində ticarətə icazə verməsində əmin edirdi (bax: 20, 5, qeyd 7). Cavab məktubunda Yelizaveta Osborn və Steyperə verilmiş imtiyazların bütün ingilis tacirlərinə şamil edilməsini xahiş edirdi.

Qeyd etmək lazımdır ki, istər İngiltərə kraliçası, istərsə də ona xidmət edən ingilis diplomatiyası bu dövrdə «Türkiyə məsələsi»ndə əsas diqqəti «kapitulyasiyalar» almağa yönəltmişdilər. 1536-cı ildə Osmanlı imperiyası tərəfindən Fransaya verilən məşhur «kapitulyasiyalar» Avropada böyük əks-səda doğurmuşdu. İlk vaxtlarda sırf iqtisadi xarakter daşıyan bu müqavilələr Qərbi Avropa dövlətlərinin Osmanlı mülklərində əvvəlcə ticarət, daha sonralar siyasi fəallığı üçün böyük imkanlar açmış oldu. Məhz fransız kapitulyasiyaları (1536-cı il) digər Avropa dövlətləri üçün nümunə oldu (6, 134-140; həmçinin bax: 4, 131-134). Orta əsrlərdə ticarət münasibətlərini tənzimləyən hüquqi akt yeni dövrdə Türkiyənin müstəmləkə asılılığına salınması üçün bir alət oldu və ölkənin sosial-iqtisadi tərəqqisini əngəllədi.

Məhz belə bir «kapitulyasiya» İngiltərə ilə Osmanlı imperiyası arasında 1580-ci ildə imzalandı. Bu «kapitulyasiyalar» (və ya imtiyazlar) 22 maddədən ibarət olub hər iki ölkə arasında «möhkəm dostluq, sülh və ittifaq»ı nəzərdə tuturdu (12, 20-23). «Kapitulyasiyalar»ın I maddəsində sultan III Murad ingilis kraliçasının təbəələrinə öz mülklərində təhlükəsizlik təminatı verirdi və həmin maddəyə görə, «heç bir kəs onlara xətər yetirə bilməzdi». II maddədə qeyd olunurdu ki, «əgər ingilis təbəələri və (o cümlədən) tacirləri hər hansı bir şəkildə ələ keçsələr, dərhal azad olunmalı idilər». Əslində bu maddə ingilislərə «eksterritoriallıq» hüququ verirdi. «Əgər ingilislərin gəmiləri türk limanlarına

yan alsa, burada sərbəst ticarət etmək» hüququ alırdılar (III maddə). IV maddə isə qəzaya uğramış ingilis gəmilərinə türklərin yardım öhdəliyini nəzərdə tuturdu.

1580-ci il «kapitulyasiyalar»ının Türkiyə iqtisadiyyatı üçün əlverişsiz şərtlərindən biri ingilis tacirlərinə öz valyutaları ilə alver etmək hüququ verməsi idi (V maddə). Qəzaya düşmüş ingilis gəmilərinin malları isə təmənnasız onlara qaytarılmalı idi (VI maddə). «Kapitulyasiyalar»ın VII maddəsinə görə Yelizavetanın təbəələri, o cümlədən onun mütərcimləri və tacirləri müvafiq gömrük və rüsumları ödəyəndən sonra, onlar üçün yollar açıq olmalı və hər bir türk kapitanı onlara maneçilik törətməməli idi. VIII maddəyə görə, «hər hansı bir ingilis kiməsə borclu qalsa və borcunu ödəmədən ölkəni tərk etsə, onun yerinə bir başqası həbs edilə bilməz». Vəfat etmiş ingilis tacirlərin əmlakı müsadirə oluna bilməzdi, əmlakı onun varisi əldə edirdi; vəsiyyət olmadığı şərtdə isə əmlak konsulun və ya kompaniya başçısının qərarına uyğun müəyyən olunmuş şəxsə keçirdi (IX maddə). Daha sonra qeyd olunurdu ki, «əgər ingilislər və onların tacirləri, mütərcimləri mal alqı-satqısı zamanı kiminləsə mübahisə etsələr, hakimə müraciət etməlidirlər» və bu «məhkəmə ədalətli olmalıdır» (X maddə). «Kapitulyasiyalar»ın XI-XII maddələri cinayətdə suçlu bilinən ingilislərə xeyli imtiyazlar nəzərdə tuturdu. İngilisləri qula çevirmək qadağan olunurdu, qul edilən ingilislər dərhal azad edilib konsula təhvil verilməli idi (XIII maddə). XIV maddə isə Osmanlı imperiyasına ticarət etmək üçün gəlmiş ingilislərdən can vergisi almağı qadağan edirdi.

Məlum olduğu kimi, hələ səlib yürüşləri zamanı Aralıq dənizinin şərq sahili limanlarında və həmçinin Konstantinopolda italyan tacirlərinə konsul saxlamaq hüququ verilmişdi və bu konsulluqlar həmin şəhərlərdə yalnız öz qanunlarına tabe olurdular. Bu konsulluqlar səlib yürüşləri məğlub olandan sonra da saxlanmışdı və Osmanlılar Konstantinopolu ələ keçirəndən sonra (1453-cü il) buradakı Venesiya konsulluğu respublikanın Türkiyədə daimi nümayəndəliyinə çevrilmişdi. XIV maddə isə Osmanlı imperiyasına ticarət etmək belə bir hüququ 1536-cı ildə fransızlar da qazanmışdı. Bir neçə onillik ərzində ingilis təbəələri fransız konsulun tabeçiliyində qalmalı olmuşdu və aydın məsələdir ki, bu vəziyyət ingilisləri qane edə bilməzdi. 1580-ci il «kapitulyasiyalar»ının XV maddəsində qeyd olunurdu ki, ingilislər «İsgəndəriyyədə, Dəməşqdə, Samosda, Tunisdə, Trablusda, Misirin bütün liman şəhərlərində özlərinə konsul seçə bilərlər». Bu konsulları seçmək, dəyişmək hüququ ingilislərin əlində idi və heç kəs buna mane ola bilməzdi.

Maraqlı haldır ki, sultan III Murad Avropanın diplomatik etiketinə çox böyük hörmətlə yanaşır və ingilislərə verdiyi imtiyazlarda qeyd edir ki, «əgər onların mütərcimləri ölkədə olmasalar və ya hər hansı başqa işlə məşğul olsalar, həll edilməli məsələ mütərcim gələnədək saxlanmalıdır və o vaxta qədər heç kəs onları narahat edə bilməz» (maddə XVI). İngilislər arasında baş verən mübahisəli məsələləri isə, XVII maddəyə görə, onların konsulları və ya kompaniya rəhbərləri həll etməli idi. Bundan əvvəl fransızlara və venesiyalı-

lara verilmiş imtiyazlar indi də təkrarən ingilislərə verilirdi (bax: XIX maddə). Nəhayət, «kapitulyasiyalar»ın sonuncu maddəsində yazılırdı: «Bütün bizim bəylərbəyilər, kapitanlar, qullarımız, kapitanların xidmətçiləri, bizim hakimlər, gömrükxana işçiləri bu imtiyazlara və maddələrə müvafiq olaraq hərəkət etməlidirlər. Bu imtiyazlarda nəzərdə tutulan ittifaq və müqəddəs sülhə İngiltərə kraliçası tərəfindən sədaqət göstərildikcə, biz də öz tərəfimizdən onlara ciddi əməl edəcəyik» (12, 23).

Beləliklə, ingilis təbəələri fransız konsullarının asılılığından azad olurdu və Levant bölgəsində əlverişli ticarət aparmaq imkanı əldə edirdi. İngilis monarxiyasının maliyyə siyasəti ilə bağlılıq isə şirkətlər üçün çox sərfəli idi: dövlətin şirkətlərdən böyük məbləğdə pul almaq zərurəti obyektiv olaraq ona gətirirdi ki, hökumət onlara güzəştə getməyə məcbur olurdu və bu şirkətlərə xartiyalar verirdi. Xartiyaların alınması ikili mənfəət verirdi. Əvvəla, şirkətlər öz rəqiblərinə münasibətdə müstəsna hüquqlara sahib olurdular. Onlar yüksək qiymətlər təyin edə bilər və hökumətə ödədiklərinin əvəzini bir neçə qat geri ala bilərdilər. Bu da Londonun ticarət oliqarxiyasının varlanmasını doğururdu. İkincisi, hökumət şirkətlərə çox əlverişli korporativ quruluş da verirdi. Bu hüquqların mənası ondan ibarət idi ki, korporasiyalar onun üzvlərinin sağ olub-olmamasından asılı olmayaraq mövcud idi və hüquqi sima kimi çıxış edirdi. Digər tərəfdən, korporativ quruluş heç də hamıya verilmirdi, yəni şirkətlər bu yolla rəqiblərdən xilas olurdular.

Şirkətlər də öz növbələrində 2 funksiya yerinə yetirirdi: birbaşa – ticarət və sənaye funksiyası və xəzinənin kreditoru funksiyalarını. Dövlət isə belə səhmdar cəmiyyətlərin təşkilində maraqlı idi. Şirkətlərə xartiyaların verilməsi xarici ticarət sahəsində ayrı-ayrı təşkilatlara inhisar hüquqların verilməsindən ibarət olurdu. Çox vaxt belə inhisar hüquqları parlamentin müvafiq aktı ilə müdafiə edilirdi. Parlament belə bir aktları ona görə verirdi ki, o da xarici ticarətin və müstəmləkəçiliyin inkişafında maraqlı idi; belə bir inkişaf isə ayrı-ayrı tacirlərin fəaliyyətindən deyil, müvafiq aktlarla dəstəklənən imtiyazlı şirkətlərdən daha çox asılı idi. İngilis taxt-tacı isə xartiyalar və parlament aktları verməklə onların işlərinə müdaxilə etmək hüququ qazanırdı.

1581-ci ilin sentyabrında İngiltərə kral xartiyası Levant şirkətinin yaradılmasına icazə verdi, bu şirkət türk sultanının mülklərində inhisar ticarət hüququ alırdı (21, 44-58). Londonun 6 iri taciri bu şirkətin təsisçisi olmuşdur. 6 ildən çox mövcud olandan sonra isə bu şirkət parçalandı. Bu müddətdə şirkət Levanta 27 ticarət ekspedisiyası təşkil etmiş və xəzinəyə 11.359 funt sterlinq gəlir gətirmişdi (17, 52). 1592-ci ildə isə şirkətin keçmiş üzvləri artıq daimi ticarət təşkilatı – Levant şirkətini yaratdı (17, 52). Şirkətin 53 təsisçisi 12 il müddətinə Levantla ticarətdə inhisar hüquqlar qazanırdı.

Levantla ticarəti genişləndirən ingilis tacirləri ilk növbədə Hindistanla ticarət əlaqələrini yaratmaq məqsədi güdürdülər. Bunu Levant tacirlərinin söylədikləri, Levant şirkətinin rəsmi sənədləri və xartiyası da sübut edir; bu xartiyada qeyd olunur ki, «sultanın mülklərindən keçməklə Ost-Hindlə tica-

rət»ə müstəsna hüquqlar şirkətə məxsusdur (17, 52). Levant tacirlərinin təşkil etdiyi ekspedisiyalar da dediklərimizi sübut edir. Məsələn, 1583-cü ildə Levanta göndərilən Con Pyuberinin əsas vəzifəsi aşağıdakını öyrənmək idi: Mesopotamiyadan keçməklə Hindistana çatmaq mümkündürmü? 1591-ci ildə isə Hindistanla sabit əlaqələr saxlamaq ümidini itirən Levant şirkəti Afrikanı üzüb keçməklə Hindistana yolu axtaran 3 gəmi göndərir (17, 52).

Ümumilikdə isə Levant şirkəti 1595-1599-cu illər ərzində 15-20 gəmiyə malik olmuşdur ki, onların da içərisində tutumu 150-250 t., bəzilərinin isə 400-600 t. olan gəmilər üstünlük təşkil edirdi. Həmin illərdə Levant şirkəti «nizamlanan» kompaniyalar içərisində ən irəlidə gedəni idi. Şirkətin illik gəliri isə 60-80-min funt sterlinq təşkil edirdi və bu rəqəm XVII əsrin ortalarına doğru 1,25 mln. funt sterlinqə çatmışdı (17, 52).

## ƏDƏBİYYAT


1. Əhmədov B.Ə. XVII əsrin I yarısında İngiltərənin Şərq siyasəti. Bakı: Nafta-press, 1998, 236 s.
2. Gözəlova Y.H. XVI-XVII əsrin birinci yarısında beynəlxalq münasibətlər. Bakı: Elm, 2007, 47 s.
3. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s.
4. Yeni Rehber ansiklopedisi. c.XI. İstanbul: Cümhuriyyet qazetesi Yayım Evi, 1994, s.131-134
5. Гасанзаде Д.Г. Англо-сефевидские отношения в конце XVI - начале XVII вв. Баку: БГУ, 2007, 196 с.
6. Данциг Б.М. К вопросу о капитуляциях на Ближнем Востоке // Журн. Народы Азии и Африки, М., 1971, № 3, с.134-140
7. Джироламо Капелло, венецианский посол в Константинополе – дожу и сенату Венеции (21 августа 1599 г.) // В кн: Англия в эпоху абсолютизма. Статьи и источники. М., МГУ, 1984, с.26-27
8. Ивонин Ю.Е. Западная Европа и Османская империя во второй половине XV-XVI вв. // журн. Вопросы истории, М., 1982, № 4, с.115-120
9. Ивонин Ю.Е. Из предыстории восточного вопроса в первой половине XVI века (Англия и франко-турецкий союз) // Вестник ЛГУ, 1974, № 2, с.87-93
10. Ивонин Ю.Е. У истоков европейской дипломатии нового времени. Минск, Минский Государственный Университет, 1984, 160 с.
11. История дипломатии. М.: Наука, 2005 – 944 с.
12. Капитуляции, или привилегии, пожалованные турецким султаном английским купцам для торговли в Османской империи // В кн.: Англия в эпоху абсолютизма. Статьи и источники. М.: МГУ, 1984, с.20-23
13. Капитуляции, пожалованные Елизавете, королеве Англии (1601 г.). // В книге: Англия в эпоху абсолютизма. Статьи и источники. М.: МГУ, 1984, с.27-30
14. Муганлинский Р.А. Азербайджанские государства XV-XVI вв. Баку: БГУ, 1998, 168 с.
15. Мустафа-бей – королеве Елизавете. // В кн.: Англия в эпоху абсолютизма. Статьи и источники. М.: МГУ, 1984, с.19-20
16. Осокин М.Г. Политика Англии в Леванте при первых Стюартах // Проблемы истории античности и средних веков. М.: МГУ, 1979, с.43-52
17. Осокин Г.М. Торговля Англии с Левантом и развитие английской промышленности в первой половине XVII века // сб.: Проблемы разложения абсолютизма и генезис капитализма в Англии. Горький: Горьковский Университет, 1980, с.50-67
18. Письмо Елизаветы турецкому султану, рекомендующее Харборна в качестве посла. // В кн.: Англия в эпоху абсолютизма. Статьи и источники. М.: МГУ, 1984, с.25-26

19. Подарок, отправленный великому султану и его приближенным с У. Харборном на корабле «Сьюзан оф Лондон» // В книге: Англия в эпоху абсолютизма. Статьи и источники. М.: МГУ, 1984, с.26-27
20. Цыпурина Г.И. Английская дипломатия в Османской империи во второй половине XVI века // В кн.: Англия в эпоху абсолютизма. Статьи и источники. М.: МГУ, 1984, с.3-19
21. Цыпурина Г.И. Торговля Англии с Левантом во второй половине XVI века // В книге: Англия в XV-XVII вв. Горький: Вып.3 ГУ, 1976, с.44-58
22. Цыпурина Г.И. Торговля Англии со странами Африки и Левантом во второй половине XVI в.- Автореферат… к.и.н. М., МГУ, 1974, 23 с.

## ИЗ ИСТОРИИ ОБРАЗОВАНИЯ АНГЛИЙСКОЙ ЛЕВАНТИЙСКОЙ КОМПАНИИ

**Н.Б.МАМЕДОВА**

**РЕЗЮМЕ**

В веке отношения западноевропейских стран с Османской империей имели политическое и экономическое значение. Почти все европейские государства стремились создать с Османской империей дипломатические и торговые связи. Англия включилась в эту борьбу в конце XVI века и вскоре смогла получить у османских султанов «капитуляции». В этот же период Англия устанавливает с Османской империей дипломатические отношения, что было связано с началом торговли между двумя странами. В 1581 году королева Елизавета санкционировала создание Левантийской компании, получившей право монопольной торговли в Османских владениях.

**Ключевые слова:** компания, торговля, международные отношения, империя, экономика

## HISTORY OF FOUNDATION OF ENGLISH LEVANT COMPANY

**N.B.MAMMADOVA**

**SUMMARY**

In the XVI century, western European relations with the Ottoman Empire had the political and economic importance. Almost all European states sought to create diplomatic and trade ties with the Ottoman Empire. Late in the XVI century, England joined this struggle and was soon able to get the Ottoman Sultans’ "capitulations". During the same period, Britain established diplomatic relations with the Ottoman Empire which was associated with the start of trade between the two countries. In 1581, Queen Elizabeth authorized the establishment of Levant company having received an exclusive right to trade in the Ottoman dominions.

**Key words:** company, trade, international relations, empire, economy